| | |
|---|---|
| *Qadınlar Arasında Həmrəylik İctimai Birliyi* | **“Sağlam Həyat” Ana və Uşaqlara Qayğı İctimai Birliyi** |




**Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində qadınların, uşaqların qəsdən öldürülməsi, yaralanması və hüquqlarının kobud şəkildə pozulması ilə bağlı**

# H E S A B A T

**Bakı -2020**

**MÜNDƏRİCAT**

**1. Giriş..........................................................................................................3**

**2.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi:səbəbləri və ağır nəticələri.................................................................................................................4**

**3. Ermənistanın Azərbaycanlı mülki əhaliyə, xüsusilə qadın və uşaqlara qarşı soyqırım siyasəti.......................................................................................................6**

**4. 27 sentyabr 2020-ci il tarixdən 9 noyabr 2020-ci il tarixinə qədər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində pozulan qadın və uşaq hüquqları...............................................................................................10**

**5. Ermənistan silahlı qüvvələri 27 sentyabr - 9 noyabr 2020-ci il tarixlərində qadağan edilmiş silahlardan istifadə etməklə Azərbaycanlı mülki əhalini, o cümlədən qadınları və uşaqları qətlə yetirmişlər...........................................14**

**6. Ermənistan Azərbaycana qarşı müharibədə uşaqlardan istifadə edir.............................................................................................................16**

**7. Azərbaycanın mülki əhasinin Ermənistan tərəfindən qətlə yetirilməsinin beynəlxlaq hüquqi baxımdan qiymətləndirilməsi .....................................18**

**8. Nəticə.......................................................................................................20**

# GİRİŞ

Ermənistanın 30 ildən çoxdur davam edən hərbi təcavüzü Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasəti, bir milyondan artıq soydaşımızın öz doğma yerlərindən didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilməsi, onların insan hüquqlarının kütləvi şəkildə pozulması ilə müşahidə olunmaqdadır.

Bu münaqişədən əziyyət çəkən və fundamental hüquqları pozulan əhali qruplarından biri də qadın və uşaqlar olmuşdur.

Ermənistanın Azərbaycana təcavüzü və həyata keçirilən soyqırım nəticəsində günahsız qadınlar və uşaqlar qətlə yetirilmiş, yaralanmış, işgəncələrə məruz qalmış, girov götürülmüş, qaçqın və məcburi köçkün həyatı yaşamış, valideynlərini itirmişlər.

Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsipləri, Cenevrə Konvensiyaları, xüsusilə Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiyası, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamə və insan hüquqları sahəsində digər sənədlərin müvafiq müddəaları kobud şəkildə pozulmuşdur.

Ermənistan nəinki Azərbaycanlı qadın və uşaqların hüquqlarını kobud şəkildə pozan cinayətlər törədir, eyni zamanda bu cinayət əməllərini öz cəmiyyətinə münasibətdə də tətbiq edir, erməni uşaqların hüquqlarını kobud şəkildə pozur, yaşamaq haqqını əlindən alır.

Ermənistan Azərbaycana qarşı müharibədə uşaqlardan istifadə edir, uşaqları silahlandırmaqla onları hərbi əməliyyatlara cəlb edir, uşaqlar arasında hərbi təbliğat işi aparır. Bütün bunlar beynəlxalq humanitar hüququn kobud pozuntusudur.

Təqdim olunan hesabatda Ermənistan tərəfindən Azərbaycanlı qadın və uşaqların qətlə yetirilməsi, hüquqlarının pozulması, o cümlədən uşaqların hərbi əməliyyatlara cəlb olunması, uşaq bağçalarından və məktəblərdən hərbi komandanlıq mərkəzləri, silah sursat anbarları kimi istifadə edilməsi kimi müharibə cinayətlərinə beynəlxalq hüquqi qiymətin verilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: səbəbləri və ağır nəticələri

Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan bu köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Ermənilərin bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur[1].

“Böyük Ermənistan” ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarlarının köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı dəhşətli terror və soyqırım həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar.

Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin əvvəllərindən SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV-nin) qopardılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçib.

1987-ci ilin sonlarından Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlayıb. 1988-1989-cu illərdə Ermənistanın başqa rayonlarında (Amasiya, Ararat, İcevan, Yeğeqnadzor, Meğri, Sisyan, Gorus, Qukark, Vardenis, Masis, Əzizbəyov, Artaşat, Hoktemberyan, Noyemberyan və s.) və şəhərlərində (Yerevan, Kirovakan, Hrazdan, Stepanavan, Spitak, Cermuk, Gümrü və s.) yaşayan azərbaycanlıların da aqibəti eyni olub. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilib, 1154 nəfər isə yaralanıb. Onlar erməni zorakılığı qarşısında öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınıblar[2].

Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya

---

[1] http://anl.az/down/meqale/xalqqazeti/2011/fevral/159937.htm

[2] http://www.justice.gov.az/categories/22

ediliblər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Bu zaman minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olub.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərib.

1988-ci ildə Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələnib.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsibdə erməni ordusu hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirib. Azərbaycanlılar həm etnik təmizləməyə, həm də əsl soyqırımına məruz qalıblar.

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn bütün prinsip və normalarına zidd olaraq, mülki əhalini məqsədyönlü şəkildə əsas hədəf kimi seçib. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, Dağlıq Qarabağda yaşayan azərbaycanlı mülki əhalinin bir hissəsini fiziki-bioloji cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü.

1988-ci ildən Ermənistan Respublikasının Azərbaycan Respubliksına qarşı ərazi iddiaları səbəbindən başlanan hərbi münaqişə nəticəsində Ermənistan tərəfindən Azərbaycana əhəmiyyətli ziyan vurulmuşdur. Münaqişənin1988-1994-cü illərdə davam edən birinci mərhələsində ölkə ərazisinin 20%-i işğal edilmiş, dövlətə və onun vətəndaşlarına milyardlarla manat dəyərində maddi və mənəvi ziyan vurulmuş, ölkə əhalisinin təxminən 10%-ni təşkil edən bir milyona yaxın vətəndaşı qaçqın və məcburi köçkün düşmüşdür. Münaqişə zamanı 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlil olmuşdur. Erməni işğalçıları tərəfindən 4.852 nəfər azərbaycanlı, o cümlədən 323 qadın, 54 uşaq və 410 qoca əsir və girov götürülmüşdü.

Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat

yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb[3].

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdur.

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb.

Zəbt olunmuş Dağlıq Qarabağ və yeddi ətraf rayonun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum 822, 853, 874 və 884 saylı Qətnamələri, BMT Baş Məclisinin “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı 14 mart 2008-ci il tarixli Qətnaməsi, Avropa Şurası Parlament Assambleyasının 2005-ci il tarixli 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi, Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı 23 oktyabr 2013-cü il tarixli qətnaməsi bir daha sübut edir.




3 http://www.justice.gov.az/categories/22

**Ermənistanın Azərbaycanlı mülki əhaliyə, xüsusilə qadınlara və uşaqlara qarşı soyqırım siyasəti**

Beynəlxalq humanitar hüquq, xüsusilə beynəlxalq humanitar hüququn əsas sənədləri olan 1949-cu il Cenevrə Konvensiyaları və onlara 1977 və 2005-ci illərdə əlavə edilmiş üç protokol, BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli qətnaməsi, eləcə də digər beynəlxalq konvensiyalar müharibə zamanı mülki əhaliyə hücumu qadağan edir.

Bununla yanaşı istənilən müharibədə, tətbiq olunması məcburi olan normativ hüquqi aktlarla yanaşı, yazılmamış müharibənin qanunları da vardır ki, bu da döyüşlər vaxtı mülki insanlara, xüsusilə qadın və uşaqlara toxunmağı qəbul etməyən mənəvi yanaşmadır.

Lakin Ermənistan müharibədə yazılan və yazılmayan qanunları, eləcə də şərəf məhfumunu özündə birləşdirən qırmızı xətti hər zaman tapdalamış, beynəlxalq hüquq normalarına və mənəvi dəyərlərə hörmət etmədiyini törətmiş olduğu müharibə cinayətləri ilə sübut etmişdir.

Erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin məqsədi soydaşlarımızı öz tarixi torpaqlarından didərgin salmaq və bu ərazilərdə mifik “Böyük Ermənistan” dövləti yaratmaq olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq, tarixi Azərbaycan torpaqları olan Qarabağa, Naxçıvana, Zəngəzura, İrəvan quberniyasına və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülmüşdür.

Həmin siyasətin qanlı tərkib hissələrindən biri də 1918-ci ildə azərbaycanlıların soyqırımı olmuşdur. 1918-ci ilin mart ayından etibarən silahlı daşnak-bolşevik dəstələri, erməni millətçiləri tərəfindən dinc azərbaycanlı əhali, o cümlədən uşaqlar və qadınlar yalnız milli və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qırğına məruz qalmış, insanlar diri-diri yandırılmış, nadir tarixi və mədəniyyət abidələri, xəstəxanalar, məktəblər, məscidlər və qəbiristanlıqlar dağıdılmışdır.

Tarix göstərmişdir ki, erməni millətçiləri sonralar da öz çirkin niyyətlərindən əl çəkməmiş, dinc soydaşlarımızı qəddarlıqla kütləvi qırğına məruz qoyaraq, cinayətlərini ört-basdır etmək məqsədilə hadisələri saxtalaşdırmağa əl atmışlar.

Ermənistan 1988-ci ildən başladığı növbəti etnik təmizləmə, təcavüz siyasəti nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı və ətraf yeddi rayonu zəbt etmiş, beləliklə torpaqlarımızın 20 faizi işğala məruz qalmış, 20 min azərbaycanlının həyatına son qoyulmuş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, onların hüquqları kütləvi şəkildə

kobudcasına pozulmuşdur.

Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycan millətindən olan yerli əhalinin qanuni yerləşdiyi yerlərdən didərgin salınması, yaşayış məntəqələrində və dövlət obyektlərində maddi sərvətlərin, mədəniyyət abidələrinin talanması və dağıdılması, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilməsi, beynəlxalq humanitar hüquqla mühafizə olunan mülki və digər şəxslərlə amansız rəftar etmə, azərbaycanlıları milli bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürməklə soyqırım, deportasiya, işgəncə və s. sülh və insanlıq əleyhinə cinayətlər, habelə qəsdən adam öldürmə, təxribat, terrorizm və başqa xüsusilə ağır cinayət hadisələri törədilmişdir.

Ermənilər tərəfindən mülki əhaliyə, xüsusən uşaqlara qarşı törədilmiş soyqırım hadisələri ilə bağlı faktları qeyd etmək istərdik.

1991-ci il sentyabrın 8-də Ağdam-Qaradağlı marşrutu ilə işləyən avtobusun erməni terrorçuları tərəfindən partladılması nəticəsində uşaqlarda daxil olmaqla 6 nəfər həyatını itirmiş, 36 nəfər yaralanmışdır. Buna qədər isə 9 belə terror aktı törədilmiş, 68 nəfər – xüsusilə qadınlar, uşaqlar, qocalar terrorun qurbanı olmuş, 132 nəfər müxtəlif bədən xəsarətləri almışdı.

1991-ci il noyabrın 20-də Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli vertolyotunun vurulması nəticəsində mülki insanlar həlak olmuşdur.

1992-ci il yanvarın 8-də “Krasnovodsk-Bakı” sərnişin bərəsinin partladılması nəticəsində qadınlar və uşaqlarda daxil olmaqla, 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdır.

1992-ci il yanvarın 28-də Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülkü vertolyotun erməni terrorçuları tərəfindən vurulması nəticəsində əksəriyyəti qadın və uşaq olan 41 nəfər sərnişin və 3 ekipaj üzvünün həlak olmuşdur. Erməni terrorçuları tərəfindən hava nəqliyyatında törədilən terror aktları nəticəsində ümumilikdə, 176 nəfər qətlə yetirilib.

Erməni faşistləri tərəfindən Xocavənd rayonunda dinc əhaliyə qarşı xüsusi amansızlıqla soyqırımı aktı həyata keçiriimişdir. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış ev dağıdılıb. Xocavəndlilərdən 145 nəfər şəhid olub, 300 nəfərdən çoxu sağlamlığını itirərək əlil olub, 243 uşaq valideynlərindən birini, 3 uşaq hər iki valideynini, 68 qadın həyat yoldaşını itirib.

1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Sovet İttifaqının 366-cı alayı tərəfindən törədilən soyqırım nəticəsində kənd əhalisinə, günahsız uşaqlara, qadınlara və qocalara amansızcasına divan tutulub. 800-dən çox əhalisi olan bu qədim Azərbaycan kəndinin girov götürülən 118 sakinindən 80-ə yaxını xüsusi amansızlıqla qətlə yetirilib, 33 nəfər isə güllələnib. Ermənilər öldürülən və yaralı halda olan kənd sakinlərini bir yerdə

təsərrüfat quyusuna tökərək üzərini torpaqlayıblar[4].

Böyük çətinliklərlə əsirlikdən azad olunan 50 kənd sakinindən 5-i qadın olmaqla 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsidir.

Faciə nəticəsində iki ailənin hər birindən 4 nəfər, 6 ailənin hər birindən isə 2-3 nəfər öldürülüb. Bundan başqa, 43 ailə öz başçısını itirib, bir ailənin uşaqların hər iki valideyni qətlə yetirilib, 146 uşaq yetim qalıb. Qaradağlı kəndində 91 nəfər - kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. Öldürülənlərdən 21-i ahıl və qoca, 10-u qadın, 8-i isə məktəbli olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə birgə Azərbaycanlılara qarşı soyqırımı cinayəti törətmişlər. Bu alayın çoxsaylı ağır texnikası şəhərə yeridilmiş, cinayətkarlar vahimə içərisində şəhəri tərk etmək məcburiyyətində qalan dinc insanları amansızcasına qətlə yetirmişlər, şəhər yerlə yeksan edilmiş, yaşayış evləri və sosial infrastruktur tamamilə dağıdılmış və yandırılmışdır.

Xocalı soyqırımı zamanı 613 nəfər insanın, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulmuş, yüzlərlə dinc sakin ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilmiş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, əsir və girov götürülənlərə amansız işgəncələr verilmişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə təməl hüquq olan yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən, 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil[5].

Erməni silahlı dəstələri Xocalı şəhərində girov götürdükləri 7-8 aylıq hamilə vəziyyətində olan Hümbətova Südabə Rəşid qızının qarnını digər girovların, o, cümlədən həyat yoldaşı Hümbətov Muğan Cəlil oğlunun gözləri qarşısında bıçaqla cırıb dölü yerə salaraq təpiklə başını basdalamaqla öldürmüşlər.

---

[4] https://az.wikipedia.org/wiki/Qarada%C4%9Fl%C4%B1_soyq%C4%B1r%C4%B1m%C4%B1

[5] https://ombudsman.az/az/view/news/476/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsmanin-xocali-soyqiriminin-25-ci-ildonumu-ile-elaqedar-b-e-y-a-n-a-t-i






1992-ci il aprel ayının 8-də səhərə yaxın erməni silahlı qüvvələri Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum etmişdilər Nəticədə Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni seperatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işkəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.



Erməni terrorunun özünəməxsus xüsusiyyətlərindən biri də müxtəlif vasitələrlə azyaşlı uşaqlara qarşı terror aktı həyata keçirməkdir. 1994-cü ildə uşaq oyuncağına partlayıcı maddə quraşdıraraq, Tovuz rayonu ərazisindən axan çaya buraxmaqla ermənilər iki uşağın ölümü ilə nəticələnən terror aktı törətdilər.

2011-ci ildə erməni terrorçular partlayıcı maddənin yerləşdirildiyi uşaq oyuncağından yenə istifadə etdilər. 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Zirəddin qızı həlak oldu, anası 1979-cu il təvəllüdlü Şahmalıyeva Elnarə Məmmədtağı qızı ağır bədən xəsarəti aldı.

02-05 aprel 2016-cı il tarixlərdə Ermənistan hərbi birləşmələri atəşkəs rejimini kobud şəkildə pozaraq hərbi hissələrlə bərabər təmas xətti boyunca dinc əhalinin sıx məskunlaşdığı Goranboy, Tərtər, Ağdam və Füzuli rayonlarının yaşayış məntəqələrini, o cümlədən məktəbləri, xəstəxanaları və ibadət yerlərini ağır silahlardan atəşə tutublar. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla 6 nəfər həlak olmuş, 33 nəfər isə ağır yaralanmışdır.



2017-ci il iyulun 4-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı qəsəbəsi 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulmuşdur. Ermənistanın bu təxribatı nəticəsində 14 aylıq Zəhra Quliyeva və nənəsi 1967-ci il təvəllüdlü Sahibə Quliyeva qətlə yetirilmiş, Sərvinaz Quliyeva isə ağır yaralanmışdır.





2020-ci il iyulun 12-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədi ilə növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozaraq iriçarplı artilleriya qurğularından istifadə etməklə hücuma keçmək cəhdi etmişlər. Ermənistan özünün təcavüzkar və terrorçu mahiyyətini növbəti dəfə nümayiş etdirərək dinc əhalinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutmuşdur. Nəticədə cəbhə bölgəsindəki Tovuz rayonu Ağdam kənd sakini həlak olmaqla ümumilikdə mülki əhaliyə mühüm ziyan dəymişdir.



**27 sentyabr 2020-ci il tarixdən 9 noyabr 2020-ci il tarixinə qədər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində pozulan qadın və uşaq hüquqları**

İşğalçı Ermənistan 27 sentyabr 2020-ci il tarixdən etibarən Azərbaycanın yeni ərazilərini  işğal etmək, dinc əhalini qətlə yetirmək məqsədi ilə hərbi təxribatlarını, sülh, insanlıq əleyhinə və müharibə cinayətlərini davam etdirməkdədir.





Müharibə cinayətlərinin ilk qurbanları da məhz mülki əhali olmuşdur. 27 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində cəhbə ərazisi olmayan Naftalan şəhərinin Qaşaltı kəndində ikisi uşaq, ikisi ahıl, biri gənc olmaqla bütöv bir ailə (Qurbanov Elbrus İsa oğlu, onun həyat yoldaşı Qurbanova Şəfayət Novruz qızı, gəlini Əmirova Afaq Dəmir qızı, orta məktəb şagirdləri olan nəvələri 2006-cı il təvəllüdlü Qurbanova Fidan Elşən qızı və 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar Nadir oğlu) həlak olub.







Daha sonra erməni cinayətkarlar əhali arasında kütləvi tələfat törətmək və təşviş

hissi yaratmaq məqsədi ilə cəbhə bölgəsindən uzaq məsafədə yerləşən, Gəncə, Mingəçevir, Yevlax, Bərdə,Qəbələ, Kürdəmir, Xızı, Abşeron kimi Azərbaycanın sıx məskunlaşmış yaşayış məntəqələri Ermənistan ərazisindən beynəlxalq səviyyədə qadağan olunmuş silahlardan, əsasən gecə saatlarında mütəmadi olaraq atəşə tutmuşdular.







27.09.2020-09.11.2020-ci il tarixlərə olan rəsmi məlumata əsasən Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi terror aktları nəticəsində aralarında uşaq, qadın, əlilliyi olan şəxslər və ahıl insanlar olmaqla 93 nəfər dinc sakin həlak olmuş, 407 nəfər ağır yaralanmış, 3326 fərdi yaşayış evi, 120 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt dağıdılaraq yararsız vəziyyətə salınmışdır[6].





[6] https://genprosecutor.gov.az/az




Humanitar məqsədlərlə 10, 18 və 26 oktyabr 2020-ci il tarixlərdə elan olunmuş atəşkəs rejiminin tələbləri Ermənistan tərəfindən döyüş bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrininballistik raket atəşinə tutulması ilə pozulmuş, beynəlxalq humanitar və insan hüquqları normalarına açıq şəkildə hörmətsizlik nümayiş etdirilmişdir.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin gecə saatlarında atəşə tutulması, günahsız ailələrin həyatına son qoyulması, uşaqların qətlə yetirilməsi ilə müharibənin xarakteri dəyişmiş oldu. İki ailənin üç azyaşlı uşağı hər iki valideynini itirməklə yetim qaldı. Bir çox ailələr tam tərkiblə məhv edildi. Həlak olan uşaqlar arasında xarici ölkə vətəndaşı da var. Rəsmi məlumatlara əsasən raket hücumları nəticəsində 8-i məktəbli olmaqla 11 uşaq həlak oldu, 50 uşaq yaralandı, 70-dən çox məktəbə və uşaq bağçasına ciddi ziyan dəydi. 26.10.2020-ci il tarixdə elan olunmuş növbəti humanitar məqsədli atəşkəsdəndərhal sonra, 27 və 28 oktyabr 2020-ci il tarixlərdə Ermənistanın Azərbaycanın Bərdə rayonunun dinc əhalisini kasetli raketlərlə atəşə tutması nəticəsində 2-si azyaşlı uşaq olmaqla 70 nəfər mülki şəxs həlak oldu, aralarında uşaqlar olmaqla 84 nəfər ağır xəsarətlər almışdır.

Qeyd olunan faktlarla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda təcavüzkar müharibəni aparma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd, əmlakı qəsdən məhv etmə və ya zədələmə vəAzərbaycan Respublikası Cinayət Məcəlləsinin digər müvafiq maddələri ilə cinayət işləri başlanılmışdır.

Dinc əhaliyə, o cümlədən uşaqlara qarşı törədilən bu hərbi cinayətlərin nəticələri xarici ölkələrin KİV nümayəndələri tərəfindən də qeydə alınıb. Bir sıra xarici ölkələrin Azərbaycandakı səfirliklərininvə beynəlxalq təşkilatların nümayəndələri belə bu vəhşiliklərin canlı şahidi olublar.

Hətta Euronews kanalının əməkdaşları Azərbaycanın yaşayış məntəqələrində çəkiliş apararkən an etibarı ilə Ermənistanın atdığı raket zərbəsindən qurtula biliblər və bu fakt video qeydə alınıb.



**Ermənistan silahlı qüvvələri istifadəsi beynəlxalq hüquqla qadağan edilmiş silahlardan istifadə etməklə Azərbaycanlı mülki əhalini, o cümlədən qadınları və uşaqları qətlə yetirmişlər**

Azərbaycanın yaşayış məntəqələri uzaq məsafədən, Ermənistan Respublikası ərazisindən mülki əhaliyə əməliyyat-taktik ballistik raket sistemlərindən istifadə edilməklə qəsdən və məqsədli şəkildə atəşə tutulması çoxsaylı insan tələfatı və dağıntılarla nəticələnmişdir.

Azərbaycanın şəhər və rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması ilə atəşə tutulması, mülki əhaliyə qarşı isifadəsi beynəlxalq hüquqla qadağan edilmiş silahların tətbiqi, qəsdən mülki əhalinin bütövlüklə və ya qismən məhv edilməsinə yönəlmiş hücumların edilməsi, mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə olunması, hərbi hədəf olmayan təhsil, səhiyyə, sosial xidmət müəssisələrinin hücumlara məruz qalması Ermənistanın sülh və insanlıq əleyhinə, müharibə, habelə ictimai təhlükəsizlik əleyhinə olan cinayətləri törətməsini bir daha təsdiq edir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə və Bərdə şəhərlərini və digər rayonları mülki əhaliyə qarşı istifadə edilməsi beynəlxalq hüquqla qadağan edilmiş silahlardan istifadə etməklə atəşə tutması ilə bağlı faktları əks etdirən video və foto görüntülər Ermənistanın müharibə cinayətlərini bir daha sübut edir.[7]




[7] http://www.anama.gov.az/news/156 http://www.anama.gov.az/en/news/156




Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Bərdə rayonunda əraziyə baxış zamanı 1 ədəd 300 mm 9M525 tipli raketin və tərkibindəki 72 ədəd 9N235 bombacığının qalıqları aşkar edilmişdir. Bu fakt Ermənistan silahlı qüvvələrinin davamlı olaraq Azərbaycanın mülki əhalisinə qarşı qadağan olunmuş kaset sursatlarından istifadə etdiyini bir daha sübut edir.[8]

Ermənistan silahlı qüvvələrinin ballistik raketlərlə atəşə məruz qoyduğu Azərbaycanın Bərdə rayonu ərazisindən ANAMA tərəfindən aşkar edilmiş və beynəlxalq konvensiyalara görə qadağan olunan kaset tipli raketlərin qalıqları və bombacıqları yuxarıdakı şəkillərdə öz əksini tapmışdır. [9]

“Amnesty International” təşkilatı artıq öz rəsmi internet səhifəsində Ermənistanın münaqişə zamanı mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə

[8] https://ombudsman.az/en/view/news/2134/ombudsman-sabina-aliyeva-conducts-fact-finding-mission-to-ganja-city
[9] https://www.youtube.com/watch?v=1aJ5JzOvyq0

etdiyini təsdiqləmişdir. [10]

Belə ki, həmin təşkilatın böhranla mübarizə üzrə ekspertləri fotolara (Vice News tərəfindən Bərdədə çəkilmiş şəkillər) əsasən, Bərdəyə Ermənistan silahlı qüvvələri tərəfindən atılan raket qalıqlarının Rusiya istehsalı olan 9M55 "Smerç" raketlərinin 9N235 saylı "claster" tipli sursat parçaları olduğunu təsdiqləyiblər.

Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Marie Struthers bu barədə açıqlamasında bildirmişdir ki, "kasetli raketlərdən mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır. Hər iki tərəfi kasetli silahların istifadəsindən çəkinməyə və mülki şəxslərin müdafiəsinə üstünlük verməyə çağırırıq"

Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərini beynəlxalq səviyyədə qadağan olunmuş silahlardan istifadə etməklə atəşə tutması faktı "Human Rights Watch"ın hesabatında əks olunmuşdur. Hesabatda eyni zamanda bildirilmişdir ki, beynəlxalq konvensiya ilə qadağan olunmuş silahların istifadəsi mülki əhaliyə və beynəlxalq hüquqa kobud hörmətsizlikdir. [11]

**Azərbaycanın mülki əhasinin Ermənistan tərəfindən qətlə yetirilməsinin beynəlxlaq hüquqi baxımdan qiymətləndirilməsi**

Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi822[12], 853[13], 874[14] və 884[15]saylıqətnamələrində Ermənistanın Azərbaycan ərazilərinəhərbi təcavüzü ilə əlaqədar münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsi müəyyən edilmişdir.[16]

Həmin qətnamələrdə aydın şəkildə göstərilmişdir ki, Azərbaycan ərazilərinin işğalı pislənilir, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılması qəbul edilmir, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq olunur və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir.

BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərini yerinə yetirməyən

[10] https://www.amnesty.org/en/latest/news/2020/10/armenia-azerbaijan-first-confirmed-use-of-cluster-munitions-by-armenia-cruel-and-reckless/

[11] https://www.hrw.org/news/2020/10/30/armenia-cluster-munitions-kill-civilians-azerbaijan?fbclid=IwAR3xekKv0YE1LkcpoOh-o6NbINEUYMbxG76MQ27QmvXlEa5mpwwLvCb8YH8

[12]http://unscr.com/en/resolutions/822

[13]http://unscr.com/en/resolutions/853

[14]http://unscr.com/en/resolutions/874

[15]http://unscr.com/en/resolutions/884

[16]https://www.mfa.gov.az/en/content/110/munaqisenin-huquqi-aspektleri

işğalçı Ermənistan Respublikasının törətdiyi növbəti hərbi təxribatlar Azərbaycanın dinc əhalisinə hədəflənmiş növbəti müharibə cinayəti və terror aktıdır, buna görə də sülh və insanlıq əleyhinə yönəlmiş cinayəti kimi beynəlxalq hüquqi məsuliyyət yaradır.

BMT Baş Məclisinin 86-cı plenar iclasda “Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət” başlığı altında 14 mart 2008-ci il tarixində qəbul edilmiş 62243 saylı Qətnaməsində “Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə hörmət və dəstək” təkrarlanır, “bütün Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması” tələb olunur və həmçinin “heç bir dövlət Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində yaranan hüquqi vəziyyəti tanımamalı və bu vəziyyətin qorunmasına yardımçı və ya kömək etməməli olduğunu” bəyan edilmişdr.

Lakin BMT-nin Nizamnaməsinin, beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən beynəlxalq humanitar hüquq normalarının, xüsusilə də 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarının, “Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında Konvensiya”nın, “Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında Haaqa Konvensiyası”nın, habelə “Uşaq hüquqları haqqında Konvesiyası”nın müddəaları təcavüzkar Ermənistan dövləti tərəfindən mütəmadi olaraq kobud şəkildə pozulmaqda davam edir.

BMT-yə üzv olan dövlətlərdən biri kimi Ermənistan Respublikası qadınların və uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokolu və 1949-cu il Cenevrə konvensiyaları[17], həmçinin, silahlı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquqi aktlarla üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirməli olduğu halda bunu icra etmir.

BMT-nin Baş Məclisinin 1974-cü il 14 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş “Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında Bəyannamə”də də vurğulanır ki, mülki əhaliyə, xüsusilə, əhalinin ən müdafiəsiz hissəsi olan qadınlara və uşaqlara saysız-hesabsız əzab-əziyyət gətirən hücum edilməsi qadağandır və belə hərəkətlər pislənməlidir.[18]

[17]https://www.icrc.org/en/doc/assets/files/publications/icrc-002-0173.pdf
[18] https://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.19_declaration%20protection%20women%20armed%20conflict.pdf

## Ermənistan Azərbaycana qarşı müharibədə uşaqlardan istifadə edir

Ermənistan nəinki Azərbaycan xalqına qarşı qadın və uşaqların hüquqlarını kobud şəkildə pozan cinayətlər törədir, eyni zamanda bu cinayət əməllərini öz cəmiyyətinə münasibətdə də tətbiq edir, uşaqların hüquqlarını kobud şəkildə pozur, yaşamaq haqqını əlindən alır.

Ermənistan tərəfinin sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində yaydığı məlumatlardan da aydın görünür ki, Ermənistan Azərbaycana qarşı müharibədə uşaqlardan istifadə edir. Ermənistan tərəfi uşaqları silahlandırmaqla onları hərbi əməliyyatlara cəlb etməyə, uşaqlar arasında hərbi təbliğat işini aparmağa başlayıb.

Ermənistanın uşaqları hərbi münaqişəyə cəlb etməsi həm də gələcəkdə Azərbaycana qarşı təxribat xarakterli məlumatların bəyan edilməsi üçün də əsas ola bilər. Belə ki, həyata keçirilən hərbi əməliyyatlar zamanı düşməninhərbi texnikası və canlı qüvvələri məhv edilərkən, Ermənistanın hərbi əməliyyatlara cəlb etdiyi uşaqlar da xəsarət ala bilərlər. Bu hal Ermənistanın mənfur niyyətlərinin həyata keçirilməsi üçün öz əhalisinə, xüsusən də əhalinin həssas təbəqələrinə olan düşmən mövqeyini və onların həyat və sağlamlıqlarına olan laqeyd münasibətini bir daha nümayiş etdirir.

Bundan başqa mətbuatda yayımlanan məlumatlardan aşkar surətdə görünür ki, Ermənistan hərbçiləri uşaq bağçalarından və məktəblərdən hərbi komandanlıq mərkəzləri kimi istifadə edirlər.

1949-cu il tarixli Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyasının[19] 51-ci maddəsi 18 yaşınadək şəxslərin silahı və köməkçi dəstələrdə işlədilməsini, onların hər hansı şəkildə hərbi əməliyyatlarda iştirak etməyə məcbur edilməsini, hətta könüllü şəkildə səfərbərliyə cəlb olunması barədə təbliğatı belə qadağan edir.

BMT-nin 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyasının[20] 38-ci maddəsinə əsasən iştirakçı dövlətlər silahlı münaqişələr zamanı 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda birbaşa iştirak etməməsini təmin etmək üçün bütün mümkün tədbirləri görməli, 15 yaşına çatmayan hər hansı şəxsi öz silahlı qüvvələrində xidmətə çağırmaqdan çəkinməlidirlər. Konvensiyaya əsasən silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə bağlı beynəlxalq

---

[19] https://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.33_GC-IV-EN.pdf

[20] https://www.ohchr.org/documents/professionalinterest/crc.pdf

humanitar hüquq üzrə öz öhdəliklərinə uyğun olaraq iştirakçı dövlətlər silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görürlər.

Qeyd olunan faktlar eyni zamanda, BMT Təhlükəsizlik Şurasının silahlı münaqişə dövründə uşaqların hərbi əməliyyatlara cəlb olunmasını və ya bu məqsədlə istismarını, uşaqlara qarşı zorakılıq hallarını, uşaqların öldürülməsi və ya onlara xəsarət yetirilməsini, uşaqların hədəfə alınmasını qətiyyətlə pisləyən 1261 (1999-cu il), 1314 (2000), 1379 (2001), 1460 (2003), 1539 (2004), 1612 (2005), 1882 (2009) saylı qətnamələrinin kobud surətdə pozulması deməkdir.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun[21] 8-ci maddəsi ilə on beş yaşına çatmamış uşaqları silahlı qüvvələrə və ya qruplara cəlb etmək və ya toplamaq və ya döyüş əməliyyatlarında fəal iştirak etmək üçün istifadə etmək hərbi cinayət hesab olunur.

Beynəlxalq humanitar hüququn əsas tərkib hissələri olan Cenevrə Konvensiyalarını, onların 1977-ci il Əlavə Protokollarını və Haaqa Konvensiyalarını qəsdən pozmaqda davam edən Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini, uşaqları hədəfə almaqla onları münaqişənin həm obyektinə, hərbi əməliyyatlara uşaqları cəlb etməklə onları həm də münaqişənin bilavasitə subyektinə çeviriblər.



[21] https://www.icc-cpi.int/nr/rdonlyres/add16852-aee9-4757-abe7-9cdc7cf02886/283503/romestatuteng1.pdf

# NƏTİCƏ

Ermənilərin Azərbaycanın mülki əhalisinə, köməksiz qocalara, qadınlara və uşaqlara qarşı törətdikləri son amansız terror aktları, eyni zamanda Ermənistanın öz uşaqlarına qarşı törədikləriHərbi cinayətlər heç bir beynəlxalq hüquq normasına və humanitar hüquq qaydalarına sığmır.

Təcavüzkar Ermənistan təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq kəskin eskalasiya yaratmaqla Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn açıq qəsdlər etmiş, mülki insanlara qarşı beynəlxalq humanitar hüququn və milli qanunvericiliyin kəskin şəkildə pozulması ilə müşayiət edilmişdir.

Azərbaycanın dinc əhalisinin həyat və sağlamlığı üçün ciddi təhlükə yaradan Ermənistanın ölkəmizə qarşı bu hərbi təxribatları, insanların təkcə fiziki və maddi cəhətdən deyil, mənəvi-psixoloji baxımdan da ağır və riskli vəziyyətdə qalmalarına, yaşamaq, təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq və digər fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına səbəb olur.

Hərbi münaqişələr zamanı tərəflər beynəlxalq səviyyədə öz üzərinə götürdükləri, insan həyatının və ümumbəşəri dəyərlərin qorunub saxlanılmasında mühüm rol oynayan humanitar öhdəliklərə, o cümlədən digər beynəlxalq hüquq normalarına əməl etməyə borcludurlar. Əks təqdirdə buna görə məsuliyyət daşımalıdırlar.

Ermənistanın insanlığa sığmayan bu kimi hərbi cinayətləri əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükədir və bu təcavüz aktı beynəlxalq təşkilatları, dünya dövlətlərini, milli insan hüquqları təsisatlarını ciddi şəkildə narahat edərək işğalçı Ermənistan Respublikasına qarşı hüquqi sanksiyaların tətbiq edilməsi ilə bağlı konkret tədbirlərin görülməsi üzrə səylər göstərməyə vadar etməlidir.

Hazırkı reallıq isə budur ki, Ermənistanın Azərbaycan ərazilərinə qarşı hərbi təcavüzü ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən hələ də konkret hüquqi məsuliyyət müəyyən edən tədbirlər həyata keçirilmir.

UNİCEF Dağlıq Qarabağda və onun hüdudlarından kənarda bir aydır davam edən döyüş əməliyyatları haqqında yaydığı 28.10.2020-ci il tarixli Bəyanatında Ermənistanın cəbhə bölgəsindən xeyli aralıda yaşayan Azərbaycanın mülki əhalisinə qarşı həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində həlak olmuş 12 uşaq barədə (soyadlarını göstərmədən) məlumat yaymış, 130.000-dən çox insan köçürüldüyünü, 76 məktəb və uşaq bağçasının zədələndiyini bəyan etmişdir. Bununla belə, Bəyanatda Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi son terror aktları nəticəsində 32 uşağın ağır şəkildə yaralanması, iki ailənin üç övladının hər iki valideynini itirməklə yetim qalması, minlərlə dinc

sakinin, o cümlədən uşaqların yaşayış yerlərindən məhrum olmaları barədə faktlar öz əksini tapmamış, bununla da mövcud vəziyyət Bəyanatda tam gerçəkliyi ilə əks etdirilməmişdir.

Ermənistanın Azərbaycana və azərbaycanlılara qarşı ekspansiv və təcavüzkar siyasəti yalnız Azərbaycan üçün deyil, bütövlükdə region və dünya üçün ciddi təhlükə yaradır. Bu cür cinayətlərin təkrarlanmaması və bəşəri ədalətin təmin edilməsi üçün azərbaycanlılara münasibətdə insanlığa qarşı və müharibə cinayətlərini törədənlər heç bir halda məsuliyyətdən kənarda qalmamalı və beynəlxalq hüququn müəyyən etdiyi qaydada cəzalandırılmalıdırlar.

Hesabatda gəlinən nəticələri ümumiləşdirərək aidiyyəti beynəlxalq təşkilatları:

1. Beynəlxalq humanitar hüquq normalarını və iştirakçısı olduğu beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərin icra olunmasını işğalçı Ermənistan dövlətindən tələb etməyə;

2. BMT-nin Təhlükəsizlik Şurasının münaqişə dövründə uşaqların müdafiəsinə dair müvafiq qətnamələrinin tələblərinin Ermənistan tərəfindən kobud şəkildə pozulması hallarına beynəlxalq hüquqi qiymət verməyə;

3. Azərbaycan Respublikasının mülki əhalisi, xüsusən də qadınlar və uşaqlar arasında tələfatlara səbəb olan və humanitar hüquq normalarının pozulması nəticəsində törədilən müharibə cinayətlərinə beynəlxalq hüquqi məsuliyyətin müəyyən edilməsi üçün zəruri addımlar atmağa;

4. Konkret olaraq UNICEFi öz mandatına[22] uyğun olaraq uşaqların Ermənistan silahlı qüvvələri tərəfindən hədəf seçilməsinə öz etirazını bildirməyə, Ermənistanın iştirakçısı olduğu beynəlxalq müqavilələrin, xüsusilə də Cenevrə Konvensiyalarının, BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nın müddəalarının kobud şəkildə pozulması faktlarına münasibət bildirilməyə çağırırıq.

**Bu hesabat Qadınlar Arasında Həmrəylik İctimai Birliyi və "Sağlam Həyat" Ana və Uşaqlara Qayğı İctimai Birliyi tərəfindən hazırlanıb.**

| *Qadınlar Arasında Həmrəylik İctimai Birliyi* | *"Sağlam Həyat" Ana və Uşaqlara Qayğı İctimai Birliyi* |
|---|---|
| Ünvan: Azərbaycan, Bakı şəh., 9 MKR Cavadaxan küçəsi 2, mənzil 16<br>E-mail: ruhen40@gmail.com<br>Tel: (+99412) 5684533 | Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küç. ev 36, mənzil 25<br>E-mail: healthylifemc@mail.ru<br>Tel: (+ 994 50) 308-83-07 |

[22] https://www.unicef.org/eca/our-mandate-no-child-left-behind